# Dünya Azərbaycana qarşı terroru pisləyir

## *Digər ölkələrin səfirliklərinin də İrandan təxliyəsi reallaşa bilər*



**Azərbaycanın İrandakı səfirliyinə terror hücumu beynəlxalq aləm tərəfindən pislənilir. Özünü müasir dünyanın bir hissəsi hesab edən ölkələr yanvarın 27-də Tehranda Azərbaycan səfirliyinə silahlı hücumu qınayırlar. Bu qanlı olay, həmçinin, digər ölkələri də İrandakı diplomatik missiyaların təhlükəsizlikdə olmadığı barədə düşünməyə vadar edir.**

**(ardı 5-ci səhifədə)**

# Dünya Azərbaycana qarşı terroru pisləyir

(əvvəli 1-ci səhifədə)

Bəli, məlum hadisə bəşəriyyəti lərzəyə salıb. Dünyanın onlarca ölkəsindən dövlət və hökumət başçıları, diplomatlar və siyasətçilər şokdadırlar. Terror aktı nəticəsində diplomatik nümayəndəliyin mühafizə xidmətinin rəhbərinin həyatını itirməsi və daha iki əməkdaşın yaralanması cinayət əməli kimi qiymətləndirilir. Sözsüz ki, bu hücumun yaratdığı rezonans İran rejiminin onsuz da çətin vəziyyətini bir qədər də ağırlaşdırır. Ölkə rəsmiləri hücumun şəxsi zəmində baş verdiyini iddia etsələr də, buna inanan yoxdur. Çünki onların məsuliyyət daşıdıqlarını hər kəs gözəl anlayır.

Səfirliklər toxunulmazdır. Diplomatik əlaqələr haqqında 1961-ci ildə qəbul olunmuş Vyana Konvensiyasına əsasən, ev sahibi ölkələr xarici missiyaların təhlükəsizliyi baxımından tam məsuliyyət daşıyırlar. Elə xarici ölkə səfirliklərinin yaydıqları çoxsaylı bəyanatlarda bu məqama toxunulur və bildirlir ki, mülki şəxslərə, o cümlədən, diplomatik xidmətdə olanlara yönəlmiş hər hansı silahlı hücum beynəlxalq hüququn norma və prinsiplərinə ziddir.

Əslində, İrandakı son terror aktı birinci hadisə deyil. Hələ 2011-ci il noyabrın 29-da Böyük Britaniyanın Tehrana tətbiq etdiyi sanksiyalardan "qəzəblənmiş" 150-yə yaxın vandal ölkənin İran paytaxtındakı diplomatik missiyasına məxsus iki binaya soxulmuşdu. O zaman insan itkisi olmamışdı. Bu hadisədən hiddətlənmiş rəsmi London İrandakı diplomatik fəaliyyətini dayandırmış, ölkədən Britaniyadakı səfirliyinin də dərhal bağlamasını tələb etmişdi. Həmin vaxt Fransa hakimiyyəti də öz səfirini məsləhətləşmələr üçün geri çağırmışdı. Hadisədən sonra Avropanın bir çox ölkəsi İrana qarşı sanksiyaların sərtləşdirilməsi təklifini dəstəkləmişdi.

Bəli, bir daha vurğulayaq ki, artıq dünya dövlətləri İrandakı səfirliklərinin təhlükəsizliyi barədə düşünməyə başlayıblar. Artıq onların bəziləri diplomatik nümayəndəliklərinin əməkdaşlarının Azərbaycan üzərindən təxliyəsi variantını nəzərdən keçirirlər. Buna səbəb həm məlum terror, həm də bu ölkənin ərazisindəki partlayışlar və raket hücumlarıdır. Deməli, Azərbaycan səfirliyi Tehranı tərk edən yeganə diplomatik nümayəndəlik olmaya bilər.

Nəzərə alaq ki, Türkiyə, Rusiya, Belarus, İsrail, Ukrayna, Gürcüstan, Səudiyyə Ərəbistanı, Slovakiya, Birləşmiş Ərəb Əmirlikləri, Moldova, Estoniya, Niderland, Misir, Özbəkistan, Şimali Kipr, Qazaxıstan, Bolqarıstan, Qırğızıstan və digər ölkələrin Xarici İşlər nazirlikləri və rəsmi şəxsləri də diplomatik nümayəndəliyə silahlı hücumu pisləyən açıqlamalarla çıxış ediblər. Ölkəmizdəki ABŞ, Əfqanıstan, İtaliya, İsrail, Belarus, İraq, Xorvatiya, Yaponiya, Polşa, Rusiya, Litva, Fələstin, Argentina, Mərakeş, Fransa, Böyük Britaniya səfirlikləri bu terror aktını beynəlxalq hüquq üçün təhdid adlandırıblar. Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, həmçinin GUAM və Türk Dövlətləri Təşkilatı diplomatik missiyaya qarşı bu cinayəti qəti şəkildə qınadıqlarını açıqlayıblar.

İranda Azərbaycan səfirliyinə hücumu pisləyənlər sırasında Bolqarıstan Respublikasının Prezidenti və ölkənin Xarici İşlər Nazirliyi də var. Bolqarıstan Prezidenti Rumen Radev: "Bolqarıstan Azərbaycanın Tehrandakı səfirliyinə ölümcül hücumu qınayır. Belə hücumlar qəbuledilməzdir və ciddi həyəcan doğurur. Biz Prezident İlham Əliyevin hadisənin müfəssəl araşdırılması barədə çağırışını dəstəkləyir və həlak olan şəxsin ailəsinə dərin hüznlə başsağlığı veririk".




Bolqarıstan Xarici İşlər Nazirliyi isə sosial şəbəkələrdəki paylaşımında səfirliyə qarşı hücumun tamamilə qəbuledilməz olduğunu bildirərək, hadisəni kəskin şəkildə qınayıb, Azərbaycan tərəfinə başsağlığını ifadə edib, həmçinin, İranın müvafiq konvensiyalara uyğun olaraq öz üzərinə götürdüyü öhdəliklərə əməl etməli olduğunu xatırladıb. Onu da deyək ki, baş vermiş terror hücumu, onun təfərrüatları, habelə Azərbaycanın İrandakı səfirliyinin əməkdaşlarının təxliyəsi ilə bağlı məlumatlar Bolqarıstanın media vasitələrində də geniş işıqlandırılıb.

Paraqvay hökumətinin də Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücuma münasibəti qətiyyətlidir. Bu mövqe ölkənin Xarici İşlər Nazirliyinin rəsmi "Tvitter" səhifəsindəki paylaşımda yer alıb: "Paraqvay hökuməti Azərbaycanın Tehrandakı səfirliyinə hücumu pisləyir, bu hərəkətlərin yolverilməz olduğunu bəyan edir, həlak olanın ailəsinə başsağlığı verir, xəsarət alanların tezliklə sağalacağına və faktların aydınlaşdırılacağına ümid edir".

Bütün bunlar diplomatik missiyaların İrandan təxliyəsinin real iş müstəvisinə keçməsini mümkünləşdirə bilər. Ancaq prosesdə aktivliyin təmin edilməsi şərtdir. Bunun üçün xaricdə yaşayan soydaşlarımız da fəaldırlar. İran belə bir təhlükənin mövcudluğunu tam dərk etməlidir ki, terror aktına obyektiv qiymət versin. Hələlik isə dediklərimiz istək və tələb olaraq qalır. Tələb səsləndirənlər sırasında "Oslo Azərbaycan Evi"nin, Norveç Azərbaycanlıları Gənclər Birliyinin (NAYO) və Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveçdəki koordinatorluğunun, Rumıniyada Azərbaycanın Dostları Assosiasiyasının və Şərqi Avropa Azərbaycanlıları Koordinasiya Şurasının Rumıniya üzrə koordinatorluğunun, Almaniyadakı Heydər Əliyev adına Dünya Boks Komitəsinin və Çexiyadakı "Xarı-Bülbül" Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının adı var. Onlar yaydıqları bəyanatlarda narahatlıqlarını ifadə edərək bildiriblər ki, İranın Azərbaycana münasibətdə təcavüzkar siyasət yürüdən Ermənistanla eyni mövqedən çıxış etməsi yolverilməzdir. Bunu xüsusilə pisləyən soydaşlarımız Avropa ictimaiyyətini və beynəlxalq birliyi Cənubi Qafqaz regionunda sülh və sabitlik əleyhinə yönəlmiş cinayətlərə görə cavabdehlik daşıyanların ən qısa zamanda məsuliyyətə cəlb olunması istiqamətində əməli addımlar atmağa çağırıblar.

***S.MƏMMƏDOV,***
***"Xalq qəzeti"***